## *XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI*

UOT 37.01.

***Firuzə Ədalət qızı Rzayeva,***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dillər Universiteti*

# DİL DƏRSLƏRİNDƏ MÜSTƏQİL İŞİN TƏŞKİLİ ZAMANI MEYDANA GƏLƏN PROBLEMLƏRİN ARADAN QALDIRILMASI MƏSƏLƏLƏRİ

***Фируза Адалат гызы Рзаева,***
*доктор философии по педагогике, доцент*
*Азербайджанского Университета Языков*

# ВОПРОСЫ УСТРАНЕНИЯ ПРОБЛЕМ, ВОЗНИКАЮЩИХ ВО ВРЕМЯ ОРГАНИЗАЦИИ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ НА ЯЗЫКОВЫХ УРОКАХ

***Rzayeva Firuza Adalat,***
*doctor of philosophy in pedagogy, assistant professor*
*Azerbaijan University of Languages*

# İSSUES OF SOLVİNG PROBLEMS THAT OCCUR İN ORGANİZATİON OF İNDİVİDUAL WORK İN LANGUAGE LEARNING CLASSES

**Xülasə:** Ali məktəblərdə xarici dilin tədrisi zamanı tələbələrin müstəqil işinin təşkilində dərsdənkənar təlim materiallarını əldə etmək və onlardan səmərəli istifadə etməyin yollarını öyrətmək lazımdır.
***Açar sözlər:*** *müstəqil iş, dərs, bilik, bacarıq, müstəqil tələbə*

**Резюме:** В статье отмечается, что при организации самостоятельной работы студентов в ВУЗ-ах в процессе обучения иностранного языка необходимо научить их приобретению внеклассных учебных материалов и способам их эффективного использования.
***Ключевые слова:*** *самостоятельная работа, урок, знание, умение, самостоятельный студент*

**Summary:** It is necessary to set up and use out of the classroom tasks for promoting learner autonomy in higher education.
***Key words:*** *individual work, lesson, knowledge, skill, individual student*

Hazırda aparılan bir sıra uğurlu islahatlar, təhsil sahəsində baş verən dəyişikliklər, gənclərin xarici dilə olan marağı, dilin öyrənmə və öyrətmə mexanizmində olan əsaslı yeniliklər müstəqil işin təşkilinin səmərəli yollarının axtarıb araşdırılmasını zəruri edir. Bu baxımdan xarici dil dərslərində müstəqil işin təşkili istiqamətində aparılan araşdırmalara nəzər yetirsək, onların aktual problemlərlə əhatə olunduğunun şahidi ola bilərik.

Bildiyimiz kimi, müstəqil iş dedikdə onun tətbiqi imkanları təkcə "pedaqoji proses" dairəsində, təlim-tərbiyə məsələlərində, öyrənib-öyrətmə prosesində məhdudlaşmır. "Müstəqillik" dedikdə biz yaşadığımız dövrdə həyatın bütün sahələrində şəxsiyyətin özfəaliyyətini təmin etmək kimi də nəzərdə tutulur.

Məsələyə didaktik cəhətdən nəzər yetirsək aydın olur ki, insan öz biliklərini müstəqil surətdə artırmaq vərdişinə yiyələnərsə onun uğuru daha bol, görəcəyi işlər isə çox müvəffəqiyyətli olur. Gənc nəsli müstəqil həyata hazırlamaq cəhdi universitet müəllimlərinin qarşısına qoyulan ən böyük şərtlərdən biridir. Bu səbəbdən dil dərslərində müstəqil işin təşkilinə qoyulan tələblər tələbələrin müstəqilliyinin təmin edilməsi

üçün ən aktual məsələlərdən sayılır. Lakin bu məsələdə formal iş üsulları da yan keçmir. Belə ki, təhsil müəssisələrinin əsas işinin tələbələrə verilən bilik, bacarıq və vərdişlərin nəzəri və praktik cəhətdən balanslaşdırılması nəzərdə tutulsa da real həyatda buna əməl edilmir. Yəni nəzəri biliklərin öyrənilməsinə şərait yaradılsa da onları təcrübədən keçirmək təsəvvür etdiyimiz qədər də asan deyil. Müstəqil işin tələbələrin bir növ həyat tərzi kimi qəbul edilməsinə çalışmaq lazımdır ki, həyatın bütün sahələrində eləcə də təhsil sahəsində tərk edilə bilməyən bir vərdişə çevrilsin. Ümumiyyətlə müstəqil işin istifadə olunma tarixinə nəzər salsaq, onun ənənəvi təlimdə nəzəri cəhətdən yer aldığının şahidi olarıq. "Müasir səviyyədə tərtib olunmuş bu tədqiqatların metodik-təcrübi istiqamətlərindən yararlanmaq, bu tarixi-pedaqoji mahiyyət daşıyan konsepsiyaların qorunub saxlanılması məqsədilə istifadə etmək müəllimlərin öhdəsinə düşən başlıca vəzifədir." (1, 11)

"Tələbələrin müstəqil işini bəzi hallarda tələbə avtonomiyası da adlandırmaq olar" (4). Tələbə muxtariyyətinə ötən onilliklərdən bəri rast gəlinir. İlk dəfə Henri Kolec tərəfindən 1981-ci ildə bu termin istifadə olunmuşdur. Bir çox metodistlər tərəfindən müxtəlif təriflər verilmişdir. Belə ki, bəzi müəlliflər bunu təhsildə bir vasitə kimi, bəziləri isə bir sonluq kimi görürlər.

Henri Kolec muxtariyyəti öyrənmə prosesində tələbənin bütün məsuliyyəti öz üzərinə götürmə kimi qiymətləndirsə də, digərləri isə bunun psixologiya ilə bağlı olduğunu vurğulayırlar. F. Benson isə muxtariyyəti tələbənin təhsil sistemində öz haqlarını bilmək kimi dəyərləndirib. Bəzən bəzi müəlliflər "tələbə müstəqilliyi" ilə "müstəqil tələbə" məfhumlarını eyniləşdirərək "müstəqil tələbə" məfhumunu "özünü-təhsilləndirmə" anlayışı ilə birbaşa izah edir. Belə ki, "Özünütəhsilləndirmə " vasitəsindən istifadə edən bütün tələbələri "müstəqil tələbə" adlandırmaq olar.

Nə üçün tələbələrdə muxtariyyəti inkişaf etdirmək zəruri amillərdən biri hesab olunur? Muxtariyyət istər hər hansısa tədris müəssisəsində, istərsə də müstəqil özünü təhsilləndirmə zamanı tələbənin öyrənmə prosesində məsuliyyəti öz öhdəsinə götürməsidir. Əgər tədris mərhələsi hər hansı təhsil müəssisəsində baş verirsə, tələbələr öyrənmə prosesində məsuliyyəti öz üzərinə götürməklə yanaşı müəllim və həmyaşıd əməkdaşlığını da diqqətdən yayındırmırlar. Müstəqil fəaliyyət göstərən tələbə ilə digər tələbələri müqayisə etsək, bir çox fərqləri tapa bilərik. Ən başlıca fərq isə müstəqil öyrənəndə öyrəndiyi biliyə qarşı dərindən qavrama olur. Digər fərqləndirici xüsusiyyətlər kimi isə onların öyrənmədə aktiv fəaliyyət göstərməklərini, lazım gələrsə riskli yollardan belə istifadə etməklərini, məzmunla yanaşı formaya da diqqət yetirməkləri, uyğunluqla yanaşı dəqiqliyi də nəzərə almaqları, hədəf dili təkmilləşdirmək üçün daim yollar və vasitələr axtarmaqları, onlar üçün tətbiq etmədə yetərli olmayan hipoteziyaları və qaydaları rədd etmək, ən önəmlisi isə onların öyrəndiyi dilə qarşı tolerantlıq göstərməyidir. Yəni ana dili ilə hədəf dil arasında qrammatik və leksik cəhətdən olan fərqlilikləri xoşgörülü qarşılamasıdır.

Müstəqil öyrənməni ənənəvi qəliblənmiş formadan bir çox fərqlərini göstərərək, ənənəvi formanın bir çox xüsusiyyətlərini müstəqil öyrənməyə zidd göstərirlər. Ənənəvi formada hər gün öyrəncilər eyni vaxtda, eyni fəaliyyəti eyni üsulla həyata keçirirlər. Tədris mərhələsini isə avtoritar mövqeyini tutan müəllim reallaşdırır. Nəticədə daim müəllimdən asılı olan tələbələr yetişir." (27, 52-59)

Dil öyrənmədə müstəqil öyrənməni tələbəyə mənimsətmənin faydalarını müəyyənləşdirərkən nəzərə almaq lazımdır ki, dil öyrənmə prosesi uzun müddətli bir proses olduğu üçün tələbə hər zaman bir pedaqoqla ünsiyyətdə və ya hər hansısa bir təhsil proqramında müntəzəm dərslərə yazılmaya bilər. Yəni hər hansısa bir təhsil müəssisəsinə davamiyyətli şəkildə baş çəkməyə bilər.

İngilis dilinin tədrisi zamanı tələbələrə danışığı öyrədərkən bu dilin müstəqil öyrənilməsi və istifadə edilməsi üçün burada müxtəlif üslubların olduğu öyrədilməlidir və onların özlərinin bu dili istifadə edərkən doğru üslubu seçməyi vərdiş halına gətirməyin vacib olduğunu Qabai T. vurğulayır.

"Tələbələrə ingilis dilini tədris edərkən onlara əsasən başa düşməyin və başa düşülməyin yollarını öyrətmək lazımdır. Dil öyrənmədə ilkin mərhələdə dörd vərdişin demək olar ki, hər birinin ən asan və ən çox istifadə olunan variantını öyrətmək lazımdır. Məsələn, "fortnight" öy-

rətməkdənsə "two weeks" daha məsləhətlidir." (3, 43)

Bəzən müstəqil öyrənmədə yanlışlıqla təlimatçıya ehtiyac olunmadığına dair bəzi mülahizələr gətirməyə çalışırlar. Çox az sayda tələbələr ali məktəbə müstəqil tələbə kimi gəlir. Əksər tələbələr isə təəssüf hissi ilə qeyd olunmalıdır ki, müəllim-avtoritar rejimindən gəlmiş tələbələrdir. Demək ki, müəllim auditoriyada muxtariyyət öyrənməni tərəqqi etdirən əsas qüvvədir.

Günümüzə qədər aparılmış elmi araşdırmalara görə nəinki tələbə müstəqil fəaliyyətinin reallaşdırılmasında, ümumiyyətlə təlim prosesinin həyata keçirilməsində müəllim əməyinin rolu inkaredilməzdir. Şübhəsiz ki, məktəbin strukturunda əsas yeri müəllim və tələbə tutur.

Demokratik üslubla işləyən pedaqoq öyrənənləri ilə daim məsləhətləşir, müəyyən tədbirlər keçirərkən onlardan fikirlər alır, onların tövsiyələrini maraqla dinləyir, nəzərə almağa çalışır. Bu zaman artıq tələbədə müəllimlə əməkdaşlıq etmək təşəbbüsü yaranır. Müəllimin təşkil etdiyi hər bir tədbirdə tələbələrə xüsusi öhdə-liklər verilir, tələbələr də üzərilərinə düşən hər bir öhdəliyi böyük həvəslə həyata keçirirlər. Belə müəllimlərə şagirdlərin idrak fəallığı, fənlərarası əlaqənin təkmilləşdirilməsi, şagirdlərin müstəqil işinin səmərəli həyata keçirilməsi, təlim prosesinin tiplərinin və təlim metodlarının modernləşdirilməsi, dərsin fəal təlim metodları ilə aparılması xüsusi əhəmiyyət kəsb edir" (2, 134).

Müstəqil işi həyata keçirmək üçün tələbələrdə bir çox fərdi keyfiyyətlər inkişaf etdirilməlidir. İlk növbədə onlarda bu işi həyata keçirmək üçün əzm, istək, daha sonra isə özünəinam olmalıdır. Əgər bu keyfiyyətləri tələbədə yaratmaq mümkün olmuşsa, artıq öyrənən üçün hədəflərini aydınlaşdırmaq, tədris materiallarını seçmək, özünüqiymətləndirməni həyata keçirmək kimi məsələlər öz həllini tapmış olacaq.

Bəzən tələbəni müstəqil öyrənmə prosesini təmin etmək üçün onlara hansı vərdişlərin aşılanması sual doğurur. Nəzərə almaq lazımdır ki, bu hər bir müəllimə görə dəyişən məsələdir, yəni müəllimin tələbəni hansı dərəcədə sərbəst görmək gözləntisindən asılıdır, müəyyən mərhələlərdən keçən prosesdir. İlk öncə dərslikdən kənar tədris materiallarını əldə etmək və onları necə istifadə etməyin yollarını onlara inkişaf etdirmək lazımdır. İnternet mənbələrindən necə məlumat almaq, hansı xəbər saytlarından istifadə etmək, onlayn qəzetlər oxumaq və onların ev tapşırığının tamamlanmasında vasitə kimi göstərmək məqsədəuyğundur. Sonrakı mərhələdə isə artıq, öyrənən məqsədlər qoymaq, onları reallaşdırmaq, özünütəhsilləndirməni planlamaq, özünüqiymətləndirməni həyata keçirmək kimi bacarıqlara yiyələnməyə nail olacaqdır. Təlimatçı tədris prosesində öyrənənlərinin hansı strategiyalarından daha çox istifadə etdiyini və hansıların onlarda daha effektiv nəticə göstərdiyini nəzərə alıb həmin istiqamətdə onları daha çox motivasiya etməlidir. Hər hansısa tapşırıq verildikdə onun həlli yollarında araşdırma, müzakirə, sual-cavab kimi strategiyaları tətbiq etməyin daha faydalı olduğu nəzərə çatdırılmalıdır. Bundan sonra isə tələbə özünə uyğun strategiyanı seçməlidir.

Xarici dilin tədrisi prosesdə baş verən müstəqil işlərin təzahür formaları bir çox hallarda təlim prosesi ilə əlaqələndirilir. Təlim prosesində elmin son nailiyyətləri öyrənənlərə ötürülür, istər nəzəri istərsə də praktik bacarıq və vərdişlər onlara aşılanır, onların vətən üçün rəqabətli, çevik vətəndaş kimi püxtələşməyinə yaxından maraq duyulur. Bu yöndə nəsil yetişdirməyin ən faydalı yollarından biri təlim fəaliyyətində öyrədilənləri real həyat hadisələri ilə əlaqələndirib əldə olunan nəzəri biliklərin praktik həyati tələbatlarla vəhdətini yaratmaq daha məqsədəuyğun ola bilər.

**Məqalənin elmi yeniliyi.** Dil fakültələrində xarici dilin tədrisi zamanı öyrənənlərin məqsədə çatmaq, onları reallaşdırmaq, özünütəhsilləndirməni planlamaq, özünüqiymətləndirməni həyata keçirmək kimi bacarıqlara yiyələnməyə nail ola bilər. Öyrədən isə tədris prosesində öyrənənlərinin hansı strategiyalarından daha çox istifadə etdiyini və hansıların onlarda daha effektiv nəticə göstərdiyini nəzərə alıb həmin istiqamətdə onları daha çox motivasiya etməlidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə verilən hər bir fakt, irəli sürülən hər bir fikir ali məktəblərində çalışan müəllimləri üçün müstəqil işin təşkili istiqamətdə yeni yanaşmanın səviyyəsini diqqət mərkəzində saxlayacaqlarına zəmin yaradır.

**Ədəbiyyat:**

1. Ağayev Ə.Ə. Yeni təlim metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri \\ Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2006, № 1
2. Qədimova X. İnteraktiv təlim metodlarının tətbiqi yolları. Bakı: Nur, 2003.
3. Юшко, Г.Н. Научно-дидактические основы организации самостоятельной работы студентов в условиях рейтинговой системы обучения: Дис. … канд. пед. Наук. Ростов на\ Д. ,2000.
4. Educational activity and its means. M.: Publishing house, 1988. 91pp.
5. http://ref.net.ua/work/det-22131.html

**E-mail:**fira_350@mail.ru
**Rəyçilər:** *dos*. G. Şirəliyeva, *dos*. Ə. Səfiyev
**Redaksiyaya daxil olub:** 17.12.2018.